

# Xalqın musiqi yaddaşında qalan sənətkar

**Bakılı Yusif kişinin ailəsində xoşbəxtlik baş vermişdi. Onun həmişə arzusunda olduğu qız övladı dünyaya gəlmişdi. Atanın sevincinin həddi-hüdudu yox idi. Adətən, azərbaycanlılar daha çox oğlan övladın dünyaya gəlməsini arzulayırlar, oğlan, hər halda, nəslin davamçısı sayılır.**

**Amma Yusif kişi qız övladının doğulmasından xüsusi qürur duyurdu. Ona elə gəlirdi ki, ata-ana qayğısını qız oğlandan yaxşı çəkir. Qızın adqoyma mərasimi keçirildi. Yaxın qohum-əqrəba şəbbə-xeyir məclisinə toplaşdılar, xəmraşı yeyəndən sonra molla Tutuxanım nənə uşağın qulağına adını oxudu, "Adınla böyüyəsən, Firəngiz balamız" - dedi.**

Firəngiz məktəbdə oxuyarkən nəğmə dərslərinə xüsusi maraq göstərirdi. Sinif yoldaşları onun gözəl səsinin olduğunu söyləyirdilər. Məktəbdə keçirilən mədəni-kütləvi tədbirlərdə Firəngiz həmişə solist kimi çıxış edər, nənəsindən, anasından eşitdiyi mahnıları xüsusi şövqlə oxuyardı. Arzusu müğənni olmaq idi. Evdə asudə vaxtlarında ailə üzvləri və gələn qonaqlar üçün "konsertlər" verərdi. Stullardan düzəltdiyi "səhnəyə" həmişə "konsert paltarında" çıxardı. Paltarı özünün təkidi ilə anası tikmişdi. O zamankı Bakının mehriban qapı-qonşuları da Firəngizin "konsertlərinə" həvəslə gələr, evlərinə dağılışan zaman qızın böyük sənət gələcəyinin olacağına inandıqlarını bildirərdilər. Atası Yusif kişi də qızının oxumağını çox bəyənirdi. "Uşaqdır hələ, qoy istədiyi qədər oxu-sun"- deyirdi. Sonralar eşidəndə ki, Firəngiz musiqi təhsili almaq arzusundadır, kişi özündən çıxaraq "Firəngiz həkimlik dalınca getməlidir, aşıqlıq dalınca yox"- söyləmişdi.

Amma zaman öz hökmünü verdi. Müharibə iştirakçısı Mahmud kişi qızın atasını razı salmaq üçün xeyli çalışdı. "Əgər oxumaq arzusu varsa, qoy getsin musiqi dalınca, uşağın istəyini ürəyində qoyma" -deyə yalvar-yaxar etdi. Ailənin digər üzvlərinin də təkidindən sonra ata axır ki, qızının müğənni olmasına razılıq verdi.

Firəngiz Asəf Zeynallı adına Bakı musiqi məktəbinə qəbul olundu. Bir vaxtdan sonra Azərbaycan radiosunun xor kollektivinə dəvət alan Firəngiz həmin kollektivdə solist kimi fəa-

liyyətə başladı. Firəngizin musiqi məktəbində Rəfiqə adlı bir rəfiqəsi vardı. O, günlərin birində Firəngizə xahişlə müraciət etdi. "Sənin yaxşı səsinin olduğunu hamımız bilirik. Mənim bacım Ağabacı konservatoriyada bəstəkarlıq sinfində təhsil alır.

Bu yaxınlarda Nizaminin sözlərinə bir romans yazmışdır. Həmin romansı onun sənət müəlliminin yanında oxumaq lazımdır. Sən oxuyarsanmı?" Firəngiz düşünüb-daşınmadan "oxuyaram", - dedi. Qızlar Rəfiqəgilə getdilər. Ağabacı deyilən qız gələcəyin böyük bəstəkarı Ağabacı Rzayeva idi. Romans üzərində gərgin iş başladı. Müğənni Firəngizin bəstəkar Ağabacının romansına müəyyən iradları nəzərə alındı və onlar razılaşdıqları gündə konservatoriyaya getdilər. Ağabacı dərs kabinetlərinin birinin qapısına çatan kimi, Firəngizdən bir qədər gözləməsini xahiş edib sinfə keçdi.

Bir neçə dəqiqədən sonra Firəngizi dərs otağına çağırdılar. İçəridə dərs masası arxasında əyləşmiş eynəkli kişi Firəngizin diqqətini ilk andan çəkdi və o, özünü bir qədər itirən kimi oldu.

Qızın çaşqınlığını görən eynəkli kişi gülümsəyərək "Xoş gəlmisən, qızım. Keç royalın yanına, oxu görək, nə oxuyursan?!"

Firəngiz oxumağa başlayanda eynəkli kişi marağını gizlədə bilməyib bütün diqqətini müğənniyə yönəltdi. "Harada oxumusan, yaxud oxuyursan, qızım?"- deyə sual etdi. Firəngiz özünü bir qədər də itirən kimi oldu. "Bakı musiqi məktəbində oxuyuram" -deyə cavab verdi. Eynəkli kişi bir qədər fikirləşəndən sonra dedi: "Qızım, sənin yerin musiqi məktəbi yox, konservatoriyadır. Sən konservatoriyada təhsil almalısan". Firəngizin eynəkli kişinin dediklərinə inanmağı gəlmədi.

Fikirləşdi ki, musiqi məktəbi tələbəsinin birbaşa konservatoriya tələbəsi olması müəmmalı məsələdir. Sonra da qərara gəldi ki, yəqin eynəkli kişi zarafat xatirinə belə təklifdə bulunur. Eynəkli kişi qapının yanına gedib öz köməkçisini içəri dəvət edib tapşırdı: "Bu qızın sənədlərini rəsmiləşdir. Bundan sonra konservatoriyada oxuyacaq bu qız". Firəngiz Ağabacıdan bu kişinin kim olduğunu soruşanda aldığı cavab onu lap çaş-baş saldı. Biləndə ki, onunla danışan və konservatoriyada oxumağına qərar verən eynəkli kişi Uzeyir bəy Hacıbəylidir, danışmağa söz tapmadı. Həmin vaxtdan Firəngizin müğənnilik karyerası başladı. O, professor Makolotovanın sinfində vokal təhsili almağa başladı. Çox tələbkar müəlliminin tapşırıqlarına tam cavab verməkdən və vokal texnikasının sirlərinə yiyələnməkdən ötrü var qüvvəsi ilə çalışan gənc qız operalardan ariyalar öyrəndikcə özünü xoşbəxt sayırdı.

Konservatoriyanın ikinci kursunda oxuyarkən Firəngiz Əhmədovanı Opera və Balet Teatrına dəvət edib ona Müslüm Maqomayevin "Şah İsmayıl" operasından Gülzarın partiyasını hazırlamağı tapşırdılar.

Opera ifaçısı olmaq çətin bir işdir. İlk növbədə, gərək vokal texnikasına yaxşı yiyələnmiş olasan. Bu isə bir o qədər də asan iş deyil. Opera partiyasının ifaçısı ilk öncə, vokal səsini düzgün idarə etməyi asanlıqla bacarmalı, boğazına güc vermədən oxuya bilməlidir.

Bunun üçün isə düzgün oxumaq texnikasına (vokal texnikasına) mükəmməl yiyələnmək tələb olunur. Vokal texnikası isə müğənninin səs əmələgətirici aparatının bütün hissələrinin işləməsi və oxuyan zaman onların qarşılıqlı əlaqəyə girə bilməsidir.

Oxumaq üçün səsin natural qoyuluşuna nail olunmalıdır. Bu isə oxumaq texnikasının inkişaf səviyyəsindən asılıdır. Firəngiz xanımın səsi anadangəlmə düzgün səs olub, bütün ifa tələblərinə cavab verir.

Onun boğaz xırdalıqları konsert proqramlarında oxuduğu mahnı və romansların, habelə ariyalardakı səs incəliyi tələb olunan yerlərdə ifa gözəlliyini genişləndirir, onların xalqının qəlbinə dərindən nüfuz etməsinə şərait yaradırdı. Firəngiz xanımın səsində olan möcüzəli boğaz xırdalıqları ölkəmizdəki vokal soprano səslilərin heç birində yoxdur. Bu, bir Allah hədiyyəsidir.

Səhnə obrazının ürəyəyatımlı olması müğənnidən yüksək artistlik qabiliyyəti tələb edir. Firəngiz xanım vokal baxımından çox enişli-yoxuşlu olan və buna görə də qüdrətli səs imkanları və geniş diapazon tələb edən Gülzar partiyasını müvəffəqiyyətlə yaratmaqla bərabər, aktyorluq məharəti də nümayiş etdirdi və tamaşaçıları məmnun qoydu. O, məhəbbəti yolunda bütün çətinlikləri dəf edə bilən gözəl Gülzar obrazını ustalıqla yaratdı. Onun opera səhnəsindəki bu ilk çıxışı böyük razılıqla qarşılandı, Azərbaycan opera səhnəsinə çox böyük istedad gəldiyini sübuta yetirdi.

Firəngiz Əhmədovanın opera fəaliyyətində uğurlar bir-birini əvəz etdi. Ona növbəti dəfə Üzeyir bəy yaradıcılığının əlçatmaz zirvəsi olan "Koroğlu" operasında Nigar partiyasını tapşırdılar. Nigar partiyası da vokal ifaçılığı baxımından çox çətindir. Üzeyir bəy Nigarın qəhrəmanlıq təzahürlərini qabarıq verməkdən ötrü yuxarı notlardan çox istifadə etmişdir.

Firəngiz xanım tamaşaçılarda heyranlıq doğuran bu notları çox asanlıqla və qışqırıq qoparmadan götürmək iqtidarında olduğunu sübuta yetirdi. O və Koroğlunun əvəzsiz ifaçısı Bülbül səsçatmaz notları inamla götürmələri ilə hər dəfə tamaşaçıların sürəkli alqışları ilə mükafatlandırılırdılar. Firəngiz xanım professor Bülbül ilə tərəfmüqabil olması ilə həmişə fəxr edirdi.

Bülbülün ecazkar səsindən və məharətli aktyor oyunundan heyranlığını gizlətmirdi və həmişə fəxarət duyurdu. Firəngiz xanım yaratdığı Nigar partiyasının məziyyətləri barədə belə yazmışdır: "Mən özümün çox da uzun olmayan aktyorluq dövrümdə çox partiyalar oxumuşam. Cüzeppe Verdinin "Aida" operasında Aida, "Otello" operasında Dezdemona, Müslüm Maqomayevin "Nərgiz" operasında Nərgiz, "Şah İsmayıl" operasında Gülzar, "Arşın mal alan" komik operasında Gülçöhrə, Fikrət Əmirovun "Sevil" operasında Sevil, Corc Bizenin "Karmen" operasında Mikaela, Süleyman Ələsgərovun "Bahadur və Sona" operasında Sona obrazlarını yaratmışam.

Müxtəlif xarakterli, insanı həyəcanlandıran, onun qəlbinin dərinliklərinə nüfuz edən bu partiyaların hər biri mənim üçün əzizdir. Lakin mənim çox sevdiyim bir partiya da var - Nigar partiyası. Nigarın ariyaları mənim qəlbimin dərinliklərinə işləmiş və heyranlıq duyğuları yaratmışdır. Sürəkli alqışlar kəsiləndən və pərdə örtüləndən sonra da uzun müddət mən bu obrazın xoş təsiri altında qalıram. Ona görə ki, Üzeyir bəyin mənəvi böyüklüyü onun yaradıcılığında da özünü qabarıq göstərir".

Firəngiz Əhmədovanın bənzərsiz, ürəyəyatımlı, yaddaqalan səs tembri və çox geniş diapazonlu səs imkanları onun Qərbi Avropa bəstəkarlarının operalarında da müvəffəqiyyətli obrazlar yaratmasına imkan vermişdir. Məsələn, "Aida" operasındakı bütün ariyalar vokal texnikası baxımından xeyli çətin olduğuna görə, onları ifa etmək hər ifaçının işi deyildir.

Operanın Nil pərdəsində Aidanın ürəkağrısı ilə oxuduğu hüznlü ariyanın final notu çox yüksək olduğuna görə, ifaçını çətin vəziyyətdə qoyur. Hətta bəzi tanıqlı sopranolar da bu çətinliyin öhdəsindən qışqırıq səsinin köməyilə birtəhər gəlirlər. Bu anda onların üz və boğaz əzələləri çox gərildiyindən mərhəmətli tamaşaçıların heyifsilənmə hissləri keçirməsinə səbəb olur.

Firəngiz Əhmədovanın Aidası heç bir vokal çətinliyi çəkmədən final notunu çox asanlıqla götürür və tamaşaçıların gurultulu alqışları ilə mükafatlandırılırdı. Müğənni xanımın Caokomo Puççininin "Çio-Çio-san" operasında madam Baterflayın uğurla yaratdığı partiyasını Avropanın bir sıra operasevərləri böyük razılıq və məftunluqla qarşılamışlar.

**SSRİ xalq artisti, Lenin ordenli, bir sıra fəxri mükafatlar laureatı Firəngiz Əhmədova Azərbaycanın zəngin musiqi tarixində özünə layiq yer tutmuşdur. O, xalqın sevimlisidir. Firəngiz xanımın oxuduğu romanslar, bəstəkar və xalq mahnıları xalqın musiqi yaddaşında daim yaşamaq qüvvəsindədir.**

**A.HÜSEYNOV**